**Azərbaycan Xalq Cümhuriyyəti – 100**

***XX əsrin əvvəllərində Azərbaycanın Qarabağ, Zəngəzur kimi zaman-zaman köçürülmə ermənilərlə nisbətən sıx məskunlaşdırılmış bölgələrində tez-tez etnik münaqişələr baş verirdi. 1918-ci ilin yaz və yayında isə bu ərazi silahlı erməni quldur dəstələrinin yerli əhaliyə qarşı kütləvi qırğın və talanlarına meydan olmuşdu.***

Bu bölgələrdə türk-müsəlmanların kütləvi qırğınlarının qarşısını almaq üçün bir neçə cəbhədə ağır döyüşlər aparan Osmanlı dövləti Azərbaycanı soyqırımından qorumaq üçün oraya hərbi qüvvə göndərmək məcburiyyətində qalmışdı. Tezliklə Nuru Paşanın rəhbərliyi ilə münaqişə bölgəsinə gələn türk qoşun bölməsini yerli əhali böyük coşqu ilə qarşılamışdı. Paşa Zəngəzur və Qarabağın əhəmiyyətli məntəqələrinə bir neçə zabiti komandir təyin edərək Cəbrayıl-Ağdam-Tərtər yolu ilə Yevlax stansiyasına gəlmişdi. Hər tərəfdən gələn nümayəndələrlə görüşdükdən sonra Nuru Paşa əvvəlcə qərargahını Nuxada (Şəki) təsis etməyi məqsədəuyğun hesab etmişdi. Lakin o, ermənilərin təhdidlərinə qarşı çevik mübarizə aparmaq üçün və dəmir yoluna görə Gəncəyə üstünlük verməli olmuşdu. Beləliklə, türk paşası 1918-ci il mayın 25-də Gəncəyə gəlmişdi.

Bundan 3 gün sonra elan olunmuş Azərbaycan Xalq Cümhuriyyəti də ordusu və lazımi qədər silahı olmadığından qardaş Osmanlı dövlətinə hərbi yardım göstərilməsi barədə müraciət etmişdi. Ölkəmiz müstəqillik qazandıqdan sonra Azərbaycan Xalq Cümhuriyyəti hökuməti təcili milli ordu yaratmalı olmuşdu. Əslində, cümhuriyyətin silahlı qüvvələrinin təşkilinə onun elan edildiyi gündən başlanmışdı. Yeni yaradılacaq ordunun əsasını Müsəlman korpusu təşkil edirdi. Ordu quruculuğuna rəhbərlik üçün ilk hökumət kabinəsinin tərkibində hərbi nazirlik də nəzərdə tutulmuş və Xosrov bəy Sultanov nazir təsdiq edilmişdi.

Lakin bu kabinənin buraxılması ilə hərbi nazir vəzifəsi də ləğv edilmiş və Azərbaycanda ordu quruculuğu prosesinə rəhbərlik hökumətin qərarı ilə Qafqaz İslam Ordusunun komandanı təyin edilmiş Nuru Paşaya həvalə olunmuşdu. Hökumət strukturunda isə Qafqaz İslam Ordusu komandanlığı ilə əlaqələri nizamlayacaq hərbi işlər üzrə baş müvəkkil vəzifəsi təsis olunmuş və İsmayıl xan Ziyadxanov bu vəzifəyə təsdiq edilmişdi. 1918-ci il iyunun 26-da hökumətin qərarı ilə Müsəlman korpusu Əlahiddə Azərbaycan korpusu adlandırılmış və onun ştat cədvəlində qismən dəyişiklik edilmişdi. General-leytenant Əlağa Şıxlinski korpusun komandiri kimi vəzifəsini yenə də davam etdirmişdi.

Türkiyə və Azərbaycan hərbi hissələrindən ibarət Qafqaz İslam Ordusunun komandanı Nuru paşanın 1918-ci il 13 avqust tarixli əmri ilə ləğv edilmiş Əlahiddə Azərbaycan korpusunun yenidən qurulmasına başlananda onun tərkibində iki piyada, bir süvari diviziyasının təşkili planlaşdırılmışdı. Mövcud süvari qüvvələri yenidən qurularaq 1-ci tatar və 2-ci Qarabağ süvari alaylarında birləşdirilmişdi. Süvari diviziyasının komandiri general-mayor Feyzulla Mirzə Qacar, 1-ci tatar süvari alayının komandiri polkovnik R. Hacıbəylinski, 2-ci Qarabağ süvari alayının komandiri isə polkovnik Süleyman bəy Əfəndiyev təyin edilmişdilər. Süvari diviziyasının qərargahı və 1-ci tatar süvari alayı Gəncədə, 2-ci Qarabağ süvari alayı isə Tərtər ətrafında yerləşirdi.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə ermənilərin Azərbaycana qarşı yeni ərazi iddiaları nəticəsində məcburiyyət qarşısında Qarabağda müvəqqəti inzibati idarəçilik rejimi yaradılmışdı. Azərbaycan Xalq Cümhuriyyəti elan edildikdən sonra Cənubi Qafqazda sülh və əmin-amanlıq yaratmaq məqsədilə Azərbaycan hökuməti 1918-ci il mayın 29-da İrəvanı ermənilərə güzəştə getmişdi. Bununla Azərbaycanın ciddi ərazi itkisinə yol verilmişdi. Lakin ermənilər Azərbaycana qarşı ərazi iddialarını davam etdirmişdilər.

Azərbaycan xalqının qatı düşməni Andronik qiyamçı ermənilərə kömək məqsədilə silahsız azərbaycanlıların kütləvi qırğınını törədərək Zəngəzurdan Şuşa qəzasına keçmişdi. 1918-ci ilin avqustunda general Denstervil başda olmaqla Böyük Britaniyanın hərbi ekspedisiya qüvvələri Bakıya yeridilmişdi. Lakin onlar Bakının türk-Azərbaycan hərbi qüvvələri və Azərbaycan xalq könüllülərindən ibarət Qafqaz İslam Ordusu tərəfindən azad edilməsinin qarşısını ala bilməmişdilər.

Bu zaman Gəncədə yerləşən cümhuriyyət hökuməti Bakını ələ keçirmiş S.Şaumyanın daşnak-bolşevik rejiminin hərbi qüvvələrinə qarşı mübarizə apardığından erməni separatçılarının törətdiyi problemi danışıqlar yolu ilə nizama salmağa çalışırdı. Bu məqsədlə Şuşaya nümayəndə heyəti göndərilmişdi. Avqustun 15-də isə Andronikin törətdiyi soyqırımı ilə əlaqədar Ermənistan hökumətinə etiraz notası verilmişdi. Erməni hökuməti iki gün sonra verdiyi cavabında Andronikin, guya, xüsusi erməni korpusuna “tabe olmadığını” bildirərək, bu yalanla məsuliyyətdən yaxa qurtarmağa çalışmışdı.

Həmin dövrdə Ermənistanın daşnak hökuməti Qarabağın Azərbaycanın tərkibində olmasını təsdiq etmişdi. Bu qərarı avqustda Şuşaya nümayəndə heyəti göndərmək üçün Ermənistanın Tiflisdəki diplomatik nümayəndəliyinin oradakı rəsmi Azərbaycan orqanlarına müraciəti də sübut edir. Azərbaycan Xalq Cümhuriyyəti ilə müqavilə əsasında (1918-ci il, iyun) dəvət edilmiş türk hərbi hissələri oktyabrda Şuşa şəhərinə, demək olar ki, müqavimətsiz daxil olmuş, ermənilər Azərbaycanın hakimiyyətini qəbul etdiklərini bildirmişdilər. Andronik isə dekabrda, guya, “ingilislərin Qarabağı onun ixtiyarına verməsi haqqında” şayiə yaymağa başlamışdı.

# Azərbaycan milli hökumətinin Dağlıq Qarabağ siyasəti

Beləliklə, 1918-ci il sentyabrın 15-də Bakı azad edildi və müstəqil Azərbaycan Cümhuriyyətinin paytaxtına çevrildi. Nuru Paşanın rəhbərliyi altında Qafqaz İslam Ordusunun apardığı döyüşlər nəticəsində Bakı şəhəri erməni-rus qoşunlarının və ingilis bölmələrinin nəzarəti altından çıxarılaraq müstəqil Azərbaycan Cümhuriyyətinin paytaxtı oldu. Bununla da Azərbaycanın müstəqilliyi onun başı üzərini kəsdirmiş real təhlükədənxilas oldu. Lakin Qarabağ bölgəsində gərginlik hələ də qalmaqda idi.

Bakı şəhərinin asayişi və mühafizəsi üçün kifayət qədər tədbirlər həyata keçirildikdən sonra Nuru Paşa 1918-ci il sentyabrın sonlarında Cəmil Cahid bəyin rəhbərliyi altında Qarabağa böyük bir dəstə göndərdi. O, Qarabağın düşmənlərdən azad olmasına böyük əhəmiyyət verirdi. Nuru Paşa Azərbaycanda olduğu müddətdə yalnız Qarabağın erməni quldurlarından təmizlənməsinə nail oldu. Qarabağda göndəriləcək dəstəni yola salandan sonra şəxsən Nuru Paşa özü də Ağdama gəldi, burada vəziyyətlə tanış oldu, C.Cahid bəylə fəaliyyət planını dəqiqləşdirdi. Ermənilərin kifayət qədər müqavimət göstərməsinə baxmayaraq, Qafqaz İslam Ordusu komandanlığı Qarabağda Azərbaycanın suveren hüquqlarının bərpası üçün lazımi qətiyyət göstərdi və qısa müddətdən sonra, C.Cahid bəyin rəhbərliyi altındakı qüvvələr Şuşaya daxil oldu.

Qarabağdakı hərbi birləşmələrin komandiri İsmayıl Haqqi bəyin sərəncamına göndərilmiş və yerli birləşmələrlə bərabər, Şuşanın ermənilər tərəfindən işğal edilmiş sıldırım yamaclı qala hissəsi çətin bir mübarizədən sonra ələ keçirilərək, bu bölgədəki erməni hücumlarının qarşısı alındı.

Qarabağda olan hərbi birləşmələrin geri çəkilməsi zamanı ermənilərin müsəlmanlara hücum etmək təhlükəsi mövcud olsa da, Şuşa qalasının ingilis birləşmələrinə təhvil verilməsi məsləhət görüldü. Bu məsələ haqqında ingilis komandanlığına müraciət edildi. İngilis birləşmələri gəldikdən sonra şəhər tərk edildi və əsgərlər Gəncəyə göndərildi.

Bütün bunlara baxmayaraq, xarici qüvvələrin hərtərəfli köməyi ilə türk-müsəlman xalqına məxsus İrəvan torpaqlarında özlərinə asanlıqla dövlət yaradan ermənilər şirnikləndərək Azərbaycan Xalq Cümhuriyyətinə ərazi iddialarını irəli sürdülər. Mudros barışığının (1918-ci il) şərtlərinə görə, müttəfiq dövlətlər adından Bakıya göndərilən ingilis qüvvələrinin komandanı general Tomson hələ Azərbaycana gəlməmiş türk qoşunları kimi, Azərbaycan qoşunlarının da 1918-ci il noyabrın 17-dək Bakıdan çıxarılmasını tələb etdi. Çünki Tomson öz ölkəsinin xarici siyasətinə uyğun olaraq, Bakını istər iqtisadi, istərsə də hərbi-siyasi baxımdan mühüm strateji mərkəz sayırdı və ona nəzarəti tamamilə öz əlində saxlamaq istəyirdi. O, müstəqil Azərbaycan hökumətini tanımaq istəmədiyi kimi, onun nəzarəti altında olan hərbi qüvvələrə də etibar etmirdi. Ona görə 1918-ci il noyabrın 22-də



Hərbi Nazirlik Gəncəyə köçürüldü. İngilis komandanlığı nazirliyin Bakıdan kənarda fəaliyyət göstərməsinə etiraz etmirdi.

1918-ci il noyabrın 27-dən dekabrın 3-dək Gəncə və Ağdam ətrafındakı hərbi hissələrə səfər edən S.Mehmandarov şahidi olduğu nöqsanları ümumiləşdirərək, xüsusi əmrlə hissə komandirlərindən onların aradan qaldırılmasını tələb etdi. 1918-ci ilin sonu–1919-cu ilin əvvəllərində Hərbi Nazirliyin rəhbərliyində və strukturunda qismən dəyişiklik edildi. AXC Nazirlər Şurasının 25 dekabr 1918-ci il tarixli qərarı ilə tam artilleriya generalı Səməd bəy Mehmandarov hərbi nazir, 29 dekabr 1918-ci il tarixli qərarı ilə isə general-leytenant Əliağa Şıxlinski hərbi nazirin müavini təyin edildi.

Erməni separatçıları və Gorusda möhkəmlənmiş Andronik azərbaycanlılara qarşı soyqırımını davam etdirirdi. Buna görə də Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin Daxili İşlər Nazirliyi 1919-cu il yanvarın əvvəllərində Şuşa, Cavanşir, Cəbrayıl və Zəngəzur qəzaları əsasında müvəqqəti general-qubernatorluq yaradılmasını təklif etdi. Hökumət yanvarın 13-də həmin qəzalarda müvəqqəti general-qubernatorluq vəzifəsinin təsis edilməsi haqqında qərar çıxardı. Bu vəzifəyə yanvarın 29-da Xosrov bəy Sultanov təyin olundu.

Azərbaycanın qəti addımlarından narahat olan Ermənistan belə bir şəraitdə Dağlıq Qarabağa açıq iddia ilə çıxış etdi. Azərbaycan hökuməti yanvarın 31-də cavab notasında Qarabağın tarixən Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğunu bildirdi və Qarabağ general qubernatorluğunun yaradılmasına Ermənistanın etirazını Azərbaycanın suverenliyinə qəsd və onun daxili işlərinə qarışmaq cəhdi kimi qiymətləndirildi.

Ermənistan isə sakitləşməyərək fevralda Britaniyanın Tiflisdəki silahlı qüvvələrinin komandanı Uorkerə müraciət etdi. Müraciətdə Xosrov bəy Sultanovun Qarabağa general-qubernator təyin edilməsinə etiraz olunur, onun səlahiyyətləri etibarsız elan edilirdi. Lakin bu müraciət cavabsız qaldı. Belə olduqda Ermənistan xarici işlər naziri general Tomsona müraciət etdi. Qarabağda yerləşən erməni milli şurası və Ermənistanın Azərbaycandakı diplomatik nümayəndəsi Bekzadyan da müxtəlif vasitələrlə ingilis komandanlığına təsir göstərməyə çalışırdı.

1919-cu il martın axırlarında Tomsonun İrəvana səfəri zamanı Ermənistan hökuməti ona təzyiqi gücləndirməyə cəhd etdi, lakin bu da nəticəsiz qaldı. General Tomsonun nümayəndəsi polkovnik Şatelvort Bakıdan Şuşaya gedərək, ermənilərin Azərbaycan Xalq Cümhuriyyəti hökumətinə tabe olmasını tələb etdi. Cümhuriyyət hökuməti isə Ermənistanın əsassız iddialarına baxmayaraq, general-qubernatorluğun fəaliyyətə başlaması üçün tədbirləri davam etdirirdi.

Aprelin 4-də general-qubernatorun orada yerləşən hərbi hissələrə münasibətdə səlahiyyət çərçivəsini müəyyən edən qanun qəbul olundu. Azərbaycan hökuməti görülən tədbirlərin süni surətdə yaradılmış Qarabağ probleminin həllində mühüm əhəmiyyətə malik olacağını düşünərək, daha inamlı addımlar atmağa başladı. Baş nazir Nəsib bəy Yusifbəyli aprelin 14-də parlamentdə hökumət bəyannaməsinin müzakirəsi zamanı demişdi: “Qarabağ xüsusunda mübahisə yoxdur”.

Lakin ciddi arxayınçılığa da əsas yox idi. Ermənilər separatçılıq fəaliyyətini davam etdirirdilər. Onlar aprelin axırında keçirdikləri qurultayda Qarabağ general-qubernatorunun hakimiyyətini tanımaqdan imtina etdilər. Bu tipli qərarların qəbul olunmasında Ermənistan hökuməti və onun Dağlıq Qarabağdakı emissarlarının pozuculuq fəaliyyəti mühüm rol oynayırdı. Tomson mayın 5-də Fətəli xan Xoyski ilə keçirilən görüşündə belə şəxslərin sürgün edilməsi haqqında sərəncam verdiyini bildirdi. Bütün bunlara baxmayaraq, separatçılar Qarabağda vəziyyəti kəskinləşdirməkdə davam edirdilər. Bu cür mürəkkəb şəraitdə Qarabağ general-qubernatorluğunun səmərəli fəaliyyəti regionda əmin-amanlığın qorunub saxlanmasında mühüm rol oynayırdı.

General-qubernator X.Sultanov separatçılara qarşı qətiyyətlə mübarizə aparırdı. İyunun 5-də erməni milli şurasının qatı irticaçı üzvləri ingilis komandanlığı nümayəndəsinin müşayiəti ilə Şuşadan Tiflisə sürgün edildi. İyunun 6-da isə Azərbaycan batalyonu Şuşanın ermənilər yaşayan hissəsindəki kazarmalarda yerləşdirildi. Burada keçirilən mitinqdə ermənilər AXC hakimiyyətini tanıdıqlarını bildirdilər. X.Sultanov konkret tədbirlərlə yanaşı, Qarabağ probleminin əsaslı şəkildə həlli proqramının hazırlanmasına da xüsusi önəm verirdi. Onun bu barədəki baxışları hökumətə təqdim etdiyi məlumat-məruzəsində və Bakıda müttəfiq qoşunlarının komandanı Şatelvortla iyunun 25-də keçirilən görüşündə şərh olunmuşdu. Ermənilər general-qubernatorluğun fəaliyyət prinsiplərini qəbul edərək, müzakirələr aparmağa başladılar.

Baş nazir Nəsib bəy Yusifbəyli, Gəncə qubernatoru Xudadat bəy Rəfibəyli və hərbi nazir Səməd bəy Mehmandarovun Şuşaya səfəri və orada görülən tədbirlər də general-qubernatorluğun nüfuzunu artırdı. Bütün bunların nəticəsində avqustun 15-də ermənilər Azərbaycan hökuməti ilə saziş imzaladılar və onlar yaşayan ərazilərin Azərbaycanın tərkib hissəsi olduğunu qəbul etdilər.

Lakin Ermənistan Respublikasının azərbaycanlılara qarşı genişlənən soyqırımı siyasəti Qarabağda da vəziyyətin sabitləşməsinə mənfi təsir göstərirdi. Bununla belə, cümhuriyyət hökuməti Qarabağı diqqət mərkəzində saxlayır, diyarın həyatının müxtəlif sahələrinə dair tədbirlərini davam etdirirdi. Ermənistan hökumətinin siyasəti isə orada yaşayan azərbaycanlıların öz dədə-baba torpağından didərgin düşərək qaçqına çevrilməsinə səbəb olmuşdu. Şuşa, Cavanşir, Cəbrayıl, Zəngəzur qəzalarında da minlərlə qaçqın yerləşmişdi. Bu, general-qubernatorluğun işini daha da mürəkkəbləşdirirdi.

1919-cu il noyabrın əvvəllərində ermənilərin Zəngəzurda törətdikləri qətl-qarətlərə qarşı mübarizə məqsədilə general-qubernatorluğa kiçik qoşun hissələri göndərildi. Bununla da Zəngəzurda azərbaycanlıların müdafiəsi sahəsində müəyyən işlər görüldü. Lakin Ermənistan hökuməti separatçılara kömək göstərir, pozuculuq işlərini artırmaqda davam edir. Nəticədə, müttəfiq dövlətlərin Cənubi Qafqazda ali komissarının müavini C.Reyin iştirakı ilə noyabrın 23-də Tiflisdə Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının sədri Nəsib bəy Yusifbəyli və Ermənistanın baş naziri Xatisov arasında saziş imzalandı. Ermənistan hökuməti bu sazişin şərtlərini pozaraq, dekabrın 8-də Zəngəzura qoşun yeritdi.

Ermənistan hökuməti Azərbaycan torpaqlarına iddiasını həyata keçirmək üçün silahlı hərbi müdaxilə ilə yanaşı, pul vəsaiti sərf edilməsinə də xüsusi fikir verirdi. 1919-cu ilin axırlarında Ermənistan hökuməti “Dağlıq Qarabağın azad” edilməsi üçün 19 milyon manat pul ayırmışdı. Bütün bunların nəticəsində 1920-ci ilin martında erməni separatçıları daha da azğınlaşdı. Martın 22-23-də Ermənistanın bilavasitə iştirakı və Moskvanın sifarişi ilə Dağlıq Qarabağda Azərbaycana qarşı xəyanətkar çıxışlar baş verdi. Qarabağda hadisələrin bu yöndə inkişafında Azərbaycan Xalq Cümhuriyyətinə qarşı təcavüzkarlıq planlarını həyata keçirməyə hazırlaşan sovet Rusiyası və bolşeviklərin ölkə daxilində apardığı pozuculuq-təxribatçılıq işləri siyasi vəziyyəti dəyişdi. 1920-ci ilin 28 aprel işğalı ilə Azərbaycan Xalq Cümhuriyyəti süquta uğradı.

***Qasım HACIYEV,***
***AMEA Qafqazşünaslıq İnstitutu ermənişünaslıq şöbəsinin müdiri, tarix üzrə elmlər doktoru***